

*Şəfəq SAHİBLİ*

# SƏS

***(POEMA)***

**PROLOQ**

Aprelin dördü təqvimdən
qeyrət ətritək səpildi
torpaq yarasına.
Vətən el-el,
oba-oba kökləndi
Qələbə havasına.

Yazağzı
kirpik-kirpik qaçdı
torpağın
yamyaşıl yuxusu.
Səngər-səngər
çiçəkləndi
ürəklərdə
Zəfər qoxusu.

Dirsəklənib "Lələtəpə"sinə
Vətən özü verdi
hücum əmrini.
Yurdun ərən oğulları
səngər-səngər soyunub
torpağı öz çiynində daşıdı
öz qəbrini.
Qeyrət

ana laylasıtək öpdü
oğulların alnından
Ana torpaq
səngər-səngər çiçəklədi
şəhid qanından.

* * *

Yaz günüydü...
İgidlərin nərəsindən
yağıların
ön səfləri yırtılırdı.
Düşmən geri atılırdı...

Əsgər qardaş!
Bu sənin yanmış həyətin,
Bu da sənin
yanmış evin.
Ağrı dolu bir heyrətə,
Dərd-qəm dolu həqiqətə,
Bir an sevin.

O çəpərə ilişib
yaylıq kimi yellənir,
Uşaqlığının
yanmış gülüşü.
Bu həyətdə, bu evdə
yaşayan
xatirələrin üstünə,
Mərmilərin, qəlpələrin
kölgəsi düşüb.

Ürək çatladır,
qaralmış divarların
şəhid libası.
Bu yanmış divarlardan
yetim-yetim boylanır
ana laylası.

Bu yanmış evin
qara sükutundan
Uşaqlıq xatirələri
özünü asıb.

Düşmən nəfəsi
soldurub
Bu divarların
doğmalığını

Bu yanmış evə,
qaralmış ocağa,
Şəhid arzuların
Ahı sığınıb.

Əsgər qardaş!
Bir an sevin
düşmənlərin acığına.
Sevincini
ovuc-ovuc səp
Üşüyən ata ocağına.
Üzünü sürt,
Doğma evin
torpağına,
daşına.
Əlini sürt,
Burda sənsiz
keçən ömrün
Baharına,
Payızına,
qışına.

Əsgər qardaş!
Bir an sevin,
Sevincindən
bir heykəl qur,
Bu millətin əyilməyən
vüqarına, dözümünə.

Qələbə müjdəli
günlərin
yaxasına sər,
Ovundur içindəki
acığını, ağrını.

Qaldır, a qardaş, qaldır
Xankəndidə, Şuşada
Baş komandanın əzmiylə
Qələbə bayrağını.

* * *

Yaz günüydü,
Yurdun bir göy çəmənində
bir döyüşçü dincəlirdi.
Onun məğrur görkəmindən
Qələbə ətri gəlirdi.

Silahını
qopuz kimi
basıb bağrına,
Ürəyini
misra-misra
köçürdü
Göyün göy varağına:

Şəhid sevgisinin ətrini alıb,
Diz çöküb torpağı yalayır bu yaz.
Qanlı köynəyini sərib çəmənə
Qaragöz lalələr ağlayır bu yaz.

Kövrəlir içində çiçəklər, otlar,
Ahımı bağrına basıb buludlar.
Yuxumda kişnəyir yiyəsiz atlar,
Sönmüş yaddaşımı qalayır bu yaz.

Dərdə xəbər verin ömrün yazından,
"Dilqəmi" göyərir Şəmşir sazından.
Yetim ömürlərin qəm bacasından,
Yaşıl xurcununu sallayır bu yaz.

Yaz günüydü...
Döyüşlərdə ər oğullar,
Səngər-səngər göyərirdi.
Şəhid-şəhid ömürlərin
salamına
Yer gəlirdi,
göy gəlirdi.
Baxıb oğul qeyrətinə
Sevincindən
yurd yaddaşı
çiçək-çiçək
kövrəlirdi.

Yaz günüydü,
Çiçəklərin naz günüydü.
Ulu "Ruhani" üstündə
köklənmiş bir
Saz günüydü.

Bu yaz günü
Yurd uğrunda
Şəhidlərin öz günüydü.

## EPİLOQ

Hər yaz günü
üzünü
bulud öpən dağlardan,
mamır basmış
qayalardan
bir səs gəlir.

Bu haraydan,
bu səsdən,
Bir Millətin,
Məmləkətin
Ulu Azadlıq eşqinə
nəfəs gəlir...
Bir səs gəlir!..

